# Mədəniyyətlərin qovuşduğu məkan

**Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirilir. Qlobal iqlim dəyişikliyi ilə bağlı müzakirələrin ən yüksək platforması olan bu mötəbər tədbirə evsahibliyinin Azərbaycana həvalə edilməsi ölkəmizə yüksək etimadın və inamın göstəricisidir.**















İqlim böhranının həlli istiqamətində xüsusi əhəmiyyətə malik olan COP29-dan gözləntilər böyükdür.

İqlim dəyişikliyi ilə mübarizə strategiyalarında mədəniyyətlərin inteqrasiyası da önəmlidir. Planetimizi qoruyan yeni dəyərlərin təşviqi üçün mədəniyyətin gücündən də istifadə edilməsi vacibdir. Bununla bağlı COP29 konfransında iqlim dəyişmələri ilə mübarizə üzrə potensial həll variantlarının təqdim edilməsinə dair müzakirələr, panellər keçirilir və sərgilər təşkil olunur. Tədbir çərçivəsində noyabrın 15-də mədəniyyətə əsaslanan iqlim fəaliyyəti üzrə mədəniyyət nazirlərinin 2-ci yüksəksəviyyəli görüşü keçirilib. Birləşmiş Ərəb Əmirlikləri, Braziliya və Azərbaycanın mədəniyyət nazirliklərinin təşkilatçılığı ilə gerçəkləşən görüşdə rəsmilər, ekspert və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Bu kimi addımlar mədəniyyətin davamlı gələcək üçün güclü bir vasitə olduğunu göstərir. Mədəniyyət Nazirliyi COP29-a hazırlıq çərçivəsində bu il ərzində bir çox tədbirlər təşkil edib. Parisdə, UNESCO qərargahında Mədəniyyət Nazirliyi tərəfindən COP29 çərçivəsində həyata keçiriləcək mədəniyyət məzmunlu tədbirlərə dair təqdimat, "COP29 və mədəniyyət: iqlim dəyişikliyinin mədəni ölçüləri" adlı konfrans, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda ətraf mühitin mühafizəsi və iqlim dəyişmələrinin mədəni irsə təsirinə dair panel və plenar sessiyalar, Ağdam şəhərində "Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri" adlı xüsusi konfrans, "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Azərbaycan ekologiyası" adlı biblioqrafiya kitabının təqdimatı və digər tədbirlər təşkil olunub.

COP29-a türk dünyası da böyük dəstək göstərir. Qırğızıstan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə noyabrın 13-14-də qırğız mədəniyyət və incəsənət ustaları Azərbaycan Dövlət Akademik Musiqili Teatrının qonaqları olub, "Adəm" adlı balet-tamaşanı nümayiş etdiriblər. Aktyor-rejissor Zamirbekov Çaqaldak və balet artisti Alina Mambetalievanın quruluşunda təqdim olunan tamaşa Qırğızıstanın "Artist" teatr truppasının təşəbbüs qrupu ilə Abdılas Maldıbayev adına Qırğızıstan Milli Akademik Opera və Balet Teatrının birgə layihəsidir.

Balet-tamaşanın nümayişindən öncə onun haqqında geniş məlumat verilib və qeyd edilib ki, "Qırğızıstan Tələbələri "Yaşıl İqtisadiyyat" Naminə" İctimai Birliyi və ATƏT-in Bişkekdəki proqram ofisinin dəstəyi ilə ərsəyə gələn bu layihənin əsl mahiyyəti dünya əhalisini planetin ekoloji tarazlığının bərpası naminə birgə mübarizəyə çağırışdır. Azərbaycan Respublikasının mədəniyyət nazirinin müavini Murad Hüseynov və Qırğızıstanın təbii sərvətlər, ekologiya və texniki nəzarət naziri Mader Maşiyev səhnəyə dəvət olunublar. Onlar öz çıxışlarında bu layihənin COP29-un keçirildiyi günlərdə məhz Bakıda təqdimatının heç də təsadüf olmadığını bildirib və "yaşıl dünya" naminə bir yumruq kimi birləşməyin, həmrəyliyin vacibliyini qeyd ediblər.

"Adəm"də dünyanın ekoloji tarazlığının bərpası naminə insanların həmrəy olmasının vacibliyi qeyd edilib. "Hər şeyə rəğmən, bəşər övladının əsas amalı "yaşıl planet"in xilası və yenidən bərpası olmalıdır!" - bu, səhnə əsərinin şüarlarından biri olub. Təbiətin harmoniyasının bərpası və "yaşıl dünya"nın qələbəsi ilə bitən tamaşada yaşadığımız və gələcək nəsillərə miras qoyacağımız planetimizin qorunmasında hamının məsuliyyəti olduğu vurğulanıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 16 noyabr (№ 252).- S.15.